**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 016/267**

**Bakı şəhəri** **“10” aprel 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Xorvatiya Respublikasının İstriyska (Istarska), Dybrovniçko-Neretvanskaya (Dubrovnik-Neretva), Pojejsko-Slavonskaya (Pozesko-Slavonska), Primorsko-Qoranska (Primorje-Gorski) dairələrində və Rumıniyanın Qorj (Gorj) inzibati ərazi vahidində blutanq, İran İslam Respublikasının Simnan (Semnan), Ərdəbil (Ardebil) əyalətlərində və Amerika Birləşmiş Ştatlarının Kanzas (Kansas), Aydaho (Idaho) ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan inzibati ərazi vahidlərində yuxarıda sadalanan xəstəliklərə görə ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Blutanq xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 20 oktyabr tarixli 69 nömrəli qərarla Xorvatiya Respublikasının İstriyska dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2020-ci il 6 noyabr tarixli 73 nömrəli qərarla Xorvatiya Respublikasının Dybrovniçko-Neretvanskaya dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2020-ci il 22 dekabr tarixli 92 nömrəli qərarla Xorvatiya Respublikasının Pojejsko-Slavonskaya dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.4.** 2021-ci il 15 yanvar tarixli 005/100 nömrəli qərarla Rumıniyanın Qorj inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.5.** 2021-ci il 26 yanvar tarixli 008/103 nömrəli qərarla Xorvatiya Respublikasının Primorsko-Qoranska dairəsinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.1.** 2021-ci il 12 aprel tarixli 023/118 nömrəli qərarla İran İslam Respublikasının Simnan əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2021-ci il 30 noyabr tarixli 072/167 nömrəli qərarla İran İslam Respublikasının Ərdəbil əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.3.** 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Kanzas ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.2.4.** 2022-ci il 27 aprel tarixli 028/203 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Aydaho ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**